yərli və yerində deyilmiş fikrinə diqqət yetirək: "İnsan sivilizasiyasının əsas məqsədi insanlara düşünməyi öyrətməkdir" (2, 16). Belə bir önəmli məqsədə çatmaq üçün kollektivin rəhbəri həm özü haqda, həm də təşkilatın inkişafı haqda həmişə düşünməli, təşkilatın üzvləri arasında müsbət psixoloji iqlimin, abı-havanın yaranmasını əsas vəzifələrdən biri kimi qəbul etməlidir.

Rəyçi: prof. A. Baxşəliyev

İstifadə edilmiş ədəbiyyat

1. Рубинштейн С. Основы общей психологии. Питер, 2000.
2. Майерс Д. Социальная психология. Секреты влияния. Санкт-Петербург, 2002.
3. Шепель В. Менталитет руководителя. Управленческое мышление. М. 2010.
4. Мирзоев И. Социальная психология стресса, Баку, 2008.
5. Novruzlu İ. İdarəetmənin sosial-psixoloji əsasları. Bakı, 2005.
6. Baxşəliyev Ə. Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı, 2011.
7. Əlizadə Ə., Əlizadə H. Pedaqoji psixologiya. Bakı, 2010.
8. Əliyev R. Mentalitet. Bakı, 2009.
9. Məmmədzadə R. Təhsil müəssisələrində mənəvi-psixoloji mühitin formalaşmasına dair. Azərbaycan məktəbi, № 5, 2006.

И.Новрузлы

От психологического недостатка необходимо избавиться

Резюме

Для устранения негативного последствия психологического террора, очень важно повысить устойчивость организма к межличностным отношениям в коллективе. Психологический террор – это эмоциональное насилие, убийство, плохое обращение, которое прямо или косвенно осуществляется группой сотрудников в отношении кого-либо из работников школьного коллектива.

I.Novruzlu

Psychological shortages must be escaped

Summary

Interpersonal relationships in a collective must be increased and durable in order to cancel negative results of psychological terror. Psychological terror is a violence to any member of school collective directly or roundabout, emotional execution and bad attitude.

Metodika, qabaqcıl təcrübə

Müasir təlim metodları və onun tətbiqi məsələləri

Oqtay Məmmədov
Saatlı şəhər Səməd Vurğun adına 1 nömrəli tam orta məktəbin direktoru, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, əməkdar müəllim, Rusiya Federasiyası Pedaqogika və Sosial Elmlər Akademiyasının müxbir üzvü

Müasir dövrdə orta ümumtəhsil məktəbinin başlıca strategiyası yüksək intellektual hazırlığa malik olan, qazandığı biliklərdən həyatın müxtəlif sahələrində istifadə etməyi bacaran, dünyagörüşü hərtərəfli inkişaf etmiş, milli və ümumbəşəri mənəvi keyfiyyətlərə yiyələnmiş, müstəqil, varlığa şüurlu münasibət bəsləyən, yaradıcı şəxsiyyətin, əsl vətəndaşın yetişdirilməsindən ibarətdir.

Bu gün ölkəmizdə tədris prosesinin təşkilinin yeni, daha səmərəli formaları axtarılır. Təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etmək üçün pedaqoji ictimaiyyətin diqqəti daha çox yeni pedaqoji texnologiyalara, yeni təlim metodlarına yönəlib.

Bu gün həm də müəllimlər yeni axtarışlara qoşulur, onların təcrübə qazandığını gördüyümüz yeniliklərin qığılcımlarını inkişaf etdirir, alovlandırır, praktik pedaqoqların qəbul etdikləri yeni sistem yaradılır. Bu müqəddəs işi yerinə yetirərkən tələskənliyə, süniliyə, yenilik xatirinə perspektivi görünməyən "təcrübənin" köçürülməsinə yol verilməməlidir. Milli novatorluğun formalaşmasına kömək göstərilməlidir.

Hazırda məktəbdə hər bir dərsə şagirdlər üçün sözün əsl mənasında təfəkkür və intellekt məkan kimi baxılmalıdır. Bu məqsədlə müasir təlim metodlarının interaktiv təlim texnologiyalarının düzgün və məqsədyönlü tətbiqi başlıca şərt hesab edilir.

Əgər ənənəvi dərs üsulunda əsas biliklər müəllim tərəfindən verilirdisə, interaktiv təlimdə üstünlük şagirdlərə verilir. Şagirdlər daim axtarışda olur, fikirlərini aydın şəkildə şərh edib, əldə etdikləri bilik və bacarıqları düzgün tətbiq etməyə səy edirlər.

Tədris etdiyi fəndən aslı olmayaraq hər bir müəllim keçdiyi mövzunu tədris edərkən qarşıya qoyulmuş məqsəd aydın və sadə, şagirdlərin başa düşəcəkləri səviyyədə olmalıdır.

Müəllim bilməlidir ki, bu mövzuda uşağa nəyi çatdırır, uşaq da bilməlidir ki, bu mövzunu nəyə görə öyrənməlidir, həmin mövzudan özü üçün nəyi əldə etməlidir.

Tələbyönümlülük, şəxsiyyətyönümlülük və nəticəyönümlülük prinsipləri əsasında qurulan müasir dərslər öz keyfiyyəti ilə digərlərindən fərqlənir. Şagirdlərin maraqları əsasında qurulan dərslər şagirdi axtarışda olmağa, yeni-yeni bilklər əldə etməyə, qarşıya qoyulmuş problemin həllini axtarmağa, uğurlu bir nəticə əldə etməyə köməklik göstərir. Bu cür keçirilən dərslər uzun müddət şagirdlərin hafizəsindən silinmir.

İnteraktiv təlim metodları dedikdə biz müzakirə metodlarını, məntiqi təfəkkürün inkişafına yönəldilən metodlar, beyin həmləsi metodları, təşkilatı metodlar və s. nəzərdə tuturuq.

Məktəbimizdə ənənəvi təlim üsulları ilə yanaşı fəal təlim merodlarından istifadəyə xüsusi diqqət yetirən və bu sahədə müsbət təcrübə toplayan fənn müəllimlərimiz çoxdur.

Müşahidə etdiyim dərslərlə bağlı təəssüratımı məktəbin ali kateqoriyalı kimya müəllimi Xanəli Dünyamalıyevin IX sinifdə "Karbon qazı" mövzusunun tədrisi gedişini təsvir etməyi faydalı sayıram.

Müəllim müzakirə (sual-cavab) metodundan istifadə edərək şagirdlərin diqqətini öyrəniləcək yeni məsələlərə cəlb edir, sualın şagirdlərin tam anlaya bilmələri formada qurulmasına, düşünməyə sövq etməsinə xüsusi diqqət yetirir, yeni öyrəndiklərini təkrarlamaları və möhkəmləndirmələri üçün əlverişli şərait yaradır.

Müəllim "Karbon qazı" mövzusunu tədris edərkən aşağıdakı sözlərlə başlayır.

- Uşaqlar, karbon qazının tərkibi karbondan və oksigendən ibarətdir. Karbon təbiətdə almaz, qrafit isə duda şəklində yayılmışdır. Almaz ən sərt maddədir, qrafit isə karandaşın yazan hissəsidir. Oksigen yanmır, ancaq yanğıya kömək edir. Karbon yanan maddədir. Karbon qazı karbonun yanmasından əmələ gəlir. Yanğını söndürür. Biz bunları bu günkü dərsimizdə öyrənəcəyik.

Müəllim yeni mövzunu laboratoriyada təcrübə nümayişi və müsahibə yolu ilə şagirdlərə öyrədir.

Dərs üçün lazım olan bütün reaktiv və cihazlar əvvəlcədən stolların üstünə qoyulur. Hər iki şagirdə bir stolda məşğul olmaq tapşırılır. Müəllimin göstərişi əsasında şagirdlər cihazları quraşdırır. Şagirdlər dörd qrupa bölünür, hər qrupa bir ad verilir. Kartoçka I, II, III, IV. Müəllim şagirdlərlə aşağıdakı sual-cavabı aparır:

- Uşaqlar, stolun üstündə neçə nömrələnmiş stəkan vardır?
- Dörd.
- Stəkanların içərisində nə vardır?
- Birinci stəkan boşdur, ikincinin dibinə şam yapışdırılmış, üçüncünün içərisində su, dördüncünün içərisində bənövşəyi rəngli maye vardır. Bundan sonra müəllim şagirdlərə təklif edir:

mərmər parçasından bir neçəsini stativə bərkidilmiş kolbaya salıb, üzərinə bir qədər xlorid turşusu töküb kolbanın ağzını qazaparan borunun tıxacı ilə bərkidin. Çıxan qazı əvvəlcə qazaparan boru vasitəsilə boş stəkanın içərisinə tutun, sonra borunu çıxarın və stəkanın dibindəki şamı yandırın və qazaparan borunu şama yaxınlaşdırın nə müşahidə etdiyinizi yadınızda saxlayın.

Sonra qazaparan borunu üçüncü, dördüncü stəkandakı mayenin içərisinə daxil edin və müşahidə etdiyinizi yadda saxlayın. Şagirdlər müəllimin dediklərinin hamısına əməl edirlər.

Müəllim daha sonra ikinci bir təcrübənin aparılmasını şagirdlərə tapşırır:

- Uşaqlar, siz içərisində soda olan kiçik kolbanı çini kasaların içərisinə qoyun, üzərinə az-az sulfat turşusu əlavə edin. Nə müşahidə etdiyinizi yadda saxlayın. Şagirdlər tapşırığı yerinə yetirirlər. Sonra onlara apardıqları təcrübələrdə müşahidə etdikləri haqqında fikirləşməyi tapşırır. Şagirdlər özləri apardıqları təcrübələri təhlil edib müstəqil nəticə çıxararırlar.

Müəllim şagirdlərin apardıqları təcrübələrdən və müşahidələrdən nə öyrəndiklərini sual-cavab metodu vasitəsilə yoxlamağa başlayır.

Mərmərin üzərinə xlorid turşusu tökdükdə hansı qaz alınır?

- Karbon qazı
- Karbon qazı havadan ağırdır, yoxsa yüngüldür?
- Karbon qazı havadan ağırdır, ona görə ki, tərəzidəki boş stəkana 1№-li stəkandakı karbon qazını buraxdıqda tarazlıq pozulur.
- 2 №-li stəkandakı şam nə üçün söndü?
- Aldığımız karbon qazını stəkana daxil etdiyimiz üçün şam söndü.
- 3 №-li stəkanda suyun rəngi nə üçün ağardı?
- Stəkanda olan əhəng suyu karbon qazı ilə reaksiyaya girib kalsium-karbonat duzunu əmələ gətirdi. Həmin duz suda həll olmadığından suyun rəngi ağardı.
- 4 №-li stəkanda bənövşəyi rəngli maye nə üçün rəngsizləşdi?
- Stəkanda qələvi olduğu üçün lakmusun təsirindən bənövşəyi rəng alındı. Oraya karbon qazı buraxdıqda məhlulun bənövşəyi rəngi tədricən yox olur.
- Kim burada gedən reaksiyanın tənliyini yazar? Şagirdin biri lövhədə reaksiyanın tənliyini yazır.
- Soda ilə sulfat turşusu arasında gedən reaksiyada nə kimi hadisə baş verdi və hansı qaz alındı?
- Soda ilə sulfat turşusu arasında gedən reaksiyadan çoxlu köpük və karbon qazı alındı. Həmin reaksiyanın tənliyini şagirdlərdən biri lövhəyə yazır.
- Bu reaksiyadan harada istifadə olunur?
- Bu reaksiyadan yanğın söndürmədə istifadə olunur.
- Karbon qazının kimyəvi xassələri haqqında kim nə deyə bilər?
- Karbon qazı turşu oksidi oldu-

ğundan, o qələvilər əsası oksidlər və su ilə reaksiyaya girir. O, yanmır, ancaq yanğını söndürür.

Şagirdlər müsahibənin sonunda karbon qazının istehsalatda, təbiətdə əhəmiyyəti və tətbiqindən danışaraq özləri belə nəticəyə gəlirlər ki, karbon qazı yaşıl bitkilərin qidasının əsasını təşkil edir. Yaşıl bitkilər üzvü maddənin əsas mənbəyidir, sintez edicisidir. Karbonsuz üzvü maddəni təsəvvür etmək olmaz.

Yaradıcı tətbiqetmə mərhələsində müəllim şagirdlərə praktik tapşırıqlar verir. Kartoçka suallarının cavablanmasına 5 dəqiqə vaxt ayrılır. Tapşırıq yerinə yetirildikdən sonra müəllim qruplara yeni mövzunun mətnini verir. Mətn üzərində işləməyi tapşırır. Bu tapşırıqların icrası şagirdlərin biliyini daha da möhkəmləndirir.

Hər bir şagird təlimdəki nailiyyətlərinin qiymətləndirilməsini gözləyir. Odur ki, müəllim qrupları qiymətləndirməyə obyektiv yanaşır, onu konkret meyarlar üzrə qiymətləndirir.

İndi isə məktəbin ali kateqoriyalı fizika müəllimi Füzuli Cəfərovun təlim diskussiyası metodu ilə XI sinifdə "Fotoeffekt" mövzusunun tədrisinə nəzər salaq.

Təlim diskussiyasının başlıca funksiyası şagirdlərin idrakı marağını stimullaşdırmaqdır. O, həm də təhsilverici, inkişafetdirici, tərbiyəedici və nəzarətedici-təshihedici kimi köməkçi funksiyaları da yerinə yetirir.

Müəllim (M.) - Əvvəlki dərslərimizdə işığın ikili təbiətə - dalğa və korpuskul təbiətinə malik olması haqqında öyrənmişdik. Hansı hadisələr işığın dalğa təbiətli olması ilə izah edilirdi?

Şagird (Ş.) İşığın interferensiyası, difraksiyası, dispersiyası və polyarizasiyası hadisələri.

M. – XX əsrin əvvəllərində Maks Plankın fərziyəsini söyləyin

Ş. – Atomlar elektromaqnit enerjisini porsiyalar – kvantlar şəklində şüalandırır və udur, hər porsiyanın enerjisi şüalanma tezliyi ilə düz mütənasibdir; yəni

$$\varepsilon = h\nu = \frac{hc}{\lambda}$$

M. – Deməli Plank fərziyəsinə görə işıq dalğa xassəsi ilə yanaşı Kvant xassəsinə malikdir. İşığn kvant xassəsi yalnız şüalanma və şüaudma zamanı-maddə ilə qarşılıqlı təsiri zamanı özünü göstərir. A.Eynşteyn Plank fərziyəsini təcrübi faktlara əsaslanaraq necə tamamladı.

Ş. – Fəzada yayılan işıq hər biri hν enerjisinə malik zərrəciklər toplusudur. Bu zərrəciklər işıq kvantları və fotonlar adlandırıldı.

M. – Yeni mövzumuz "Fotoeffekt" hadisəsidir.

1887-ci ildə H.Hersin apardığı təcrübə zamanı müəyyənləşdirdi ki, qövs boşaldıcısının mənfi yüklü elektrodu üzərinə ultrabənövşəyi şüalar yönəltdikdə, elektrodlar arasında boşalma asanlaşır, hətta boşalma kiçik gərginliklərdə də baş verir. Bu hadisəni Hers özü izah edə bilmədi. Bu hadisəni rus alimi Stoletov, alman

alimi Halvaks və italyan alimi Riki apardığı çoxsaylı təcrübələri əsasında izah etdilər.

Riki işıq şüasının təsiri ilə metaldan qoparma hadisəsini fotoeffekt hadisəsi adlandırmışdı. İşığın təsiri ilə metal səthindən qoparılan elektronlar fotoelektronlar, cərəyan isə fotocərəyan adlandırıldı. Yadda saxlayın ki, katod lövhənin yalnız sink deyil, digər metallarla əvəz etsək yenə də fotoeffekt hadisəsi baş verir.

M. – Dərslikdə təsvir edilmiş qurğuda katod üzərinə düşən işıq selini dəyişmədən gərginliyi artırsaq fotocərəyanda artdığı müşahidə olunur. Gərginliyin müəyyən qiymətində fotocərəyan maksimum qiymət alır, yəni sabit qalır. Buna səbəb nə ola bilər?

Ş. – Yəqin ki, işığın təsiri ilə katoddan qopan bütün elektronlar keçiricilikdə iştirak edir.

M. – Əgər katoda düşən işıq selinin intensivliyini artırsaq hansı hadisə baş verə bilər?

Ş. – Katoddan vahid zamanda qopan elektronların sayı artmalıdır.

M. – Yəni bu halda doyma cərəyanında maksimum qiyməti artar.

Ş. – Bəli

M. – 1902-ci ildə alman fiziki F.Lenard fotoeffekt hadisəsini energetik baxımdan ilk izahını verdi. Katod üzərinə düşən işıq (foton) enerjisinin (ε) bir hissəsi elektronların metaldan çıxış işinə ($A_ç$), digər hissə isə fotoelektronların kinetik enerjisinə sərf olunur. Yəni $\varepsilon = A_ç + E_k$

Lenard heç cürə başa düşə bilmirdi ki, nə üçün fotoelektronların kinetik enerjisi işığın intensivliyindən aslı deyil?

Bu hadisənin düzgün izahını 1905-ci ildə A.Eynşteyn verdi: fotoeffekt hadisəsində hər bir fotoelektronu bir foton qoparır. Elektron foton udaraq, onun enerjisini qəbul edir, bu enerji elektronun metaldan çıxış işinə və ona kinetik enerji verilməsinə sərf olunur.

M. – Fotoeffekt hadisəsi zamanı diqqəti aşağıdakı qanuna yetirmək lazımdır.

- Fotoelektronların maksimal kinetik enerjisi işığın intensivliyindən deyil, işıq tezliyindən və katodun materialından aslıdır.

Ş. – Fotonun enerjisi ($\varepsilon = h\nu$) çıxış işindən kiçik olsa hadisə necə baş verər?

M. – Fotoeffekt o zaman müşahidə olunur ki, udulan fotonun hν enerjisi ən azı fotoelektronların katoddan çıxış işinə bərabər olmalıdır.

Yəni $h\nu \geq A_ç$; $\frac{hc}{\lambda} \geq A_C$

Burada $V_{min} \geq \frac{A_ç}{hc}$ $\lambda_{max} = \frac{hc}{A_ç}$

uyğun olaraq fotoeffekt hadisəsainin baş verməsi üçün tezliyin və dalğa uzunluğunun qırmızı sərhəddi adlanır. Deməli hər maddə üçün fotoeffektin qırmızı sərhəddi mövcuddur.

Fotoeffekt nəzəriyyəsinin yaradıcısı kimi Eynşteyn 1921-ci ildə Nobel mükafatına layiq görülmüşdür.

Sonra müəllim ev tapşırığı verdi: § 8.3 səhifə 65.

Yuxarıda verilmiş texnologiya ilə fotoeffekt hadisəsinin şagirdlərə onların fəal iştirakı ilə təlim-diskussiyası formasında izah olunması fiziki nəzəriyyələrin necə yaranması təsəvvürlərini genişləndirir.

Göründüyü kimi, fəal təlim metodu məktəbdə öz yerini tutmuşdur. Təhsil islahatı sahəsinə daim dövlət qayğısının göstərilməsi müəllimlərimizin yeni-yeni uğurlar qazanmasına inam yaradır.

İstifadə edilmiş ədəbiyyat

1. Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu 2009.

2. Rüstəmov F. Pedaqoji qeydlər, resenziyalar, müsahiblər. Bakı: Elm və təhsil, 2010.

3. Əliquliyev R., Mahmudova R. Fərdlərdə informasiya mədəniyyətinin formalaşdırılmasına struktur yanaşma. // Azərbaycan məktəbi, 2011, № 3.

О.Мамедов

Современные методы обучения и вопросы его применения

Резюме

В статье говорится о рациональной организации учебного процесса и примерах рабочего опыта отдельных учителей.

O.Mammadov

New teaching methods and their applying issues

Summary

The article deals with the effective organization of teaching process and the samples of different teachers' job experiences.

Dil qaydalarının mənimsədilməsi sisteminə diqqət yetirilir

Bəsti Mehralıyeva
Bakı şəhəri 194 nömrəli tam orta məktəbin müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi

Açar sözlər: *saitlərin orfoqrafiyası, avaz, danışıq üzvləri, samit cütləri, orfoepiya, vurğulu heca.*

Ключевые слова: *орфография гласных, озвучение, речевые органы, согласные пары, орфоэпия, ударный слог.*

Key words: *orthography of vowels, voice, organs of speech, consonant pairs, orthoepy, stressed syllable.*

Milli Kurikulumun tələblərindən irəli gələn vəzifələrdən biri də budur ki, nitq bacarıqlarının daha dərindən və elmi əsaslarla mənimsənilməsində Azərbaycan dili dərslərinin rolu böyükdür. Ona görə ki, bu fənnin tədrisi zamanı öyrədilən "Dil qaydaları nitqimizi ədəbi dilin normalarına uyğun qurmağa kömək edir".

Fikirlərimizi əsaslandırmaq üçün nümunələri III sinfin "Azərbaycan dili" dərsliyindən gətirməyi lazım bildik. Dərslikdə dil qaydaları haqqında biliklər "Ünsiyyət nədir?" mövzusunun tədrisi ilə başlanır və şagirdlərə bir daha xatırladılır ki, ünsiyyət nitq vasitəsilə yaranır. Burada nəzərə almaq lazımdır ki, ana dilinin tədrisi, ilk növbədə, ünsiyyət əsaslı (kommunikativ) yanaşma metodikasına üstünlük verilməsini, müəllimlərin öz peşəkarlıq səviyyəsinin artırılması sahəsində müasir və effektiv təkmilləşdirmə sisteminin tətbiqini tələb edir. Bu zaman şagirdlər 4 nitq bacarığından istifadə etməli olurlar: dinləmə, danışma, oxu və yazı.

Qeyd etmək lazımdır ki, bu dərslikdə həm tədrisin, həm də təlimin səviyyəsinin yüksəldilməsi ön plana çəkilmiş, ən sadə üsullardan istifadə edilmişdir. Məsələn, sözlərin yaranmasında səslərin rolu və mahiyyətini anlatmaq üçün "Danışıq səsləri" mövzusu üzrə iş şagirdlərin əvvəlki siniflərdən səs haqqında bildiklərinə yeni bir baxışla danışıq səslərinin mahiyyətinə diqqət yetirməklə, bu prosesdə şagirdlərə anladılır ki, təbiətdə baş verən hadisələr zamanı (küləyin səsi, qab-qacaq səsi, ayaq tappıltısı, tütək səsi və s.) yaranan səslərlə insanın danışdığı zaman çıxartdığı səslər həm yaranma üsuluna, həm də məna və mahiyyətinə görə bir-birindən fərqlənir: "İnsan danışarkən yaranan səslər